**Xurşidbanu Natəvanın anadan olmasından 190 il ötür**

# Şuşanın tək incisi, *Xan qızı*



***Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı!***
***Nə də bu aləm ərə dil müqəyyədi-qəm olaydı!***
***Nə hicr atəşinə odlanıb yanardı dilim ki,***
***Nə eşqin içrə könül böylə şadü xürrəm olaydı!***

Beləcə, hər misradan, beytdən süzülüb gəlir musiqi, kədərə qarışıb bir ömrün ifadəsinə çevrilir. Nədir, bu kədərin səbəbi? Əsrləri aşıb zəmanəmizədək gələn o böyük kədər yükünü çəkib gətirən gücün, qüvvənin sirri nə? Bir şairənin incə ruhundan süzülən bu misralar XIX əsrdə yazılmağına baxmayaraq, sanki Şuşasız günlərimiz, aylarımız, illərimiz üçün deyilmişdi. Şuşanın dərdindən, narahat ruhların hüznündən xəbər verirdi:

***Nə ah olaydı, nə əfsus, nə parə-parə könül,***
***Nə Natəvanın, ilahi, həvəsi dərhəm olaydı...***

Uzun illər Şuşasız qaldıq, içimiz oyuldu, oradakı əsir məzarlar bizə həsrət-həsrət baxdı, orada Vaqif, Xan qızı qərib-qərib, boynubükük qaldı. Bir Koroğlu istədik, nərə çəkib dəlilərini haylamaq üçün. Elə dərin, elə böyük oldu ki, yağı tapdağına çevrilən Şuşanın sinəmizə çəkdiyi dərdin şırımları. Vaqifin məzarı yandı, məscidlərimiz dağıdıldı, Üzeyirin, Bülbülün, Xan qızının heykəlləri güllələndi... Dolama yolları bizsiz qaldı, sinəsində yağılar gəzdi. İllər uzunu bizi haraylad Şuşa, Şuşa qızı bizi çağırdı...

Nadir şahın yanında xidmət etdiyi dövrlərdə özünü qüvvətli, qüdrətli sərkərdə kimi göstərən Pənahəli xan həm də şəxsiyyəti ilə, rəhmli və ədalətli davranışıyla hörmət, rəğbət qazanmışdı. Pənahəli xan şeirə, musiqiyə böyük maraq göstərib, məhəbbətlə yanaşıb. Övladlarının təhsilli, savadlı yetişməsinə xüsusi diqqət ayırıb. Bu ənənə onun sülaləsində nəsildən-nəslə keçib və yeni parlaq simaların yetişməsinə yol açıb.

Ağabəyim ağa Pənahəli xanın nəvəsi, İbrahim xanın qızı və Xurşidbanu Natəvanın bibisi idi. Ağabəyim gənc yaşlarından sözə, sənətə böyük həvəs göstərmiş, məşhur şair Molla Pənah Vaqifdən dərs almışdı. 1797-ci ildə Ağa Məhəmməd şah Qacarın sui-qəsdlə ölümündən sonra Qarabağ xanlığı ilə İran arasında dərinləşən ixtilafın aradan qaldırılması, münasibətlərin düzəldilməsi üçün İran şahı Fətəli şaha ərə verilən Ağabəyim ağa ömrünün sonuna qədər Tehranda Vətən həsrəti çəkə-çəkə yaşayır. Ancaq bir azərbaycanlı qızının Vətən həsrətinə qatlaşması minlərlə vətəndaş qanının tökülməsinin qarşısını alır. Minlərlə qız-gəlinin, ağbirçək ananın göz yaşı tökülmür... Natəvan da bax, belə Vətən təəssüblü, ziyalılığı, kübarlığı, qeyrətilə seçilən Azərbaycan xanımı idi.

Xurşidbanu Natəvan Cavanşir-Usmiyeva 1832-ci il avqustun 6-da Şuşada anadan olmuş, Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdi. O, ailənin yeganə övladı, həm də Qarabağ xanlıqlarının sonuncu vərəsəsi olduğu üçün, onu sarayda tək inci, el arasında isə "Xan qızı" çağırırdılar.

Sarayın təcrübəli dayə və mürəbbiyələrinin tərbiyəsi altında böyüyən balaca Xurşidbanu məktəb yaşına çatanda isə evdə dövrün alim və sənətkarlarından dərs almış, doğma ana dili ilə yanaşı, ərəb və fars dillərini də öyrənmişdir. Quran ayələrini və dini ehkamları əzbərləməklə bərabər, dünyəvi elmlərlə də tanış olmuşdur. Müntəzəm surətdə mütaliə ilə məşğul olan Xurşidbanu dahi Şərq şairlərinin ələ düşən nadir kitablarını, qiymətli əlyazmalarını oxuyur və beləcə klassik ədəbiyyata bağlanırdı.

Natəvanın dünyagörüşünün, bədii zövqünün formalaşmasında Qasım bəy Zakir, Mirzə Camal Cavanşir Qarabaği, Mirzə Adıgözəl bəy Qarabaği, Əhməd bəy Cavanşir kimi tanınmış şəxsiyyətlərin böyük rolu olmuşdur.

1850-ci ildə Vorontsovun şəxsi yavəri Xasay xanla ailə həyatı qurmuş, əvvəl Dağıstanda yaşamış, sonra Tiflisə köçmüşdür. Bu şəhərdə rus, gürcü mədəni cəmiyyətlərinə qoşulmuş, özü də milli ənənəsi, kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə maraq oyatmışdı. Bir sıra vilayət və şəhərlərə səyahətə çıxması Xurşidbanunun təfəkkür dairəsinin genişlənməsinə, dünyagörüşünün artmasına təkan vermişdir.

1855-ci ildə Xurşidbanunun oğlu Mehdiqulu, 1856-cı ildə qızı Xanbikə dünyaya gəlmişdir. Parlaq istedadlı və qabaqcıl ideallara malik şəxsiyyət olan Natəvanda iki böyük nəsil - Cavanşirlərin və Ziyadoğlu - Qacarların qanı vardı. Hər iki nəsildə bir sıra şairlər dünyaya gəlmişdi. Təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə tanınan Xurşidbanu kasıblara əl tutmuş, Şuşaya su kəməri çəkdirmiş, sadəliyi ilə xalq arasında sevilmişdi.

Natəvan ikinci dəfə 1869-cu ildə rəiyyət içərisindən çıxmış Seyid Hüseyn adlı bir şuşalıya ərə getmiş, bu hərəkəti ilə bəy və mülkədarları qəzəbləndirmişdi. Ömrü boyu qınaq və töhmətlərdən yaxa qurtara bilməyən şairə ağlamaqdan gözlərinin nurunu itirmiş, 1897-ci il oktyabrın 1-də vəfat etmiş, Ağdamın "İmarət" qəbiristanlığında dəfn olunmuşdur. Ağdam rayonu işğaldan azad ediləndən sonra məlum olmuşdur ki, ermənilər tərəfindən Natəvanın məqbərəsi dağıdılmış, qəbri isə təhqir olunmuşdur.

Xurşidbanu Natəvan yaradıcılığa təxminən XIX əsrin 50-ci illərindən başlamış, "Xurşid" imzası ilə ilk vaxtlar yazdığı şeirlərin əksəriyyəti itib batmış, yalnız cüzi bir hissəsi bizə gəlib çatmışdır. 1870-ci ildən şairə özünə Natəvan (köməksiz, zəif, xəstə) təxəllüsünü götürərək dərin məzmunlu qəzəllər yazmışdır:

***Rəqibi görməsin bir nəşə, ya rəb, cami-işrətdən***
***Ki, məndən bixəbər ol şuxi məstü sərgiran eylər.***

***

***Deyirlər dərdi-eşqin adəm öldürməz, dürüstdür bu,***
***Və lakin ömr eylər, mən kimi zarü Natəvan eylər.***

Natəvanın poeziyası Azərbaycan xanəndələrini də ruhlandırırdı. Qəzəllərinin ilk ifaçılarından biri Seyid Şuşinskinin xatirəsində qeyd olunur ki, o, şairənin qəzəllərini yalnız "Segah" üstündə oxuyarmış. Bəlkə də bu, şeirlərindəki yanğıdan, hüzndən, kədərdən irəli gəlirmiş... Onun şeirləri Azərbaycan bəstəkarlarının əsərlərində də öz əksini tapıb. Xalq artisti, professor Vasif Adıgözəlovun Natəvanın sözlərinə yazdığı məşhur "Qərənfil" mahnı-romansı buna ən gözəl nümunədir:

***Səni kimdir sevən bica, qərənfil?***
***Sənə mən aşiqi-şeyda, qərənfil!***
***Üzündən pərdəyi-nazın kənar et!***
***Unutma aşiqi, haşa, qərənfil!***

Xan qızı rəssamlıqla da məşğul olurdu, həmçinin nəfis əl işləri, müxtəlif janrda tikmələri də vardı. O, ictimai işlərdə və idarəetmədə də bacarığını nümayiş etdirmişdir. Şuşada "Məclisi-üns" şairlər məclisi yaratmış, onun bütün xərclərini öz üzərinə götürmüşdü. "Məclisi-üns"ün bəzi məclisləri sırf musiqi məclisi hesab olunurdu. 16 yaşlı oğlunun ölümündən sonra, Natəvan daha bədbin ruhlu şeirlər yazır. "Ağlaram", "Olaydı", "Getdi", "Sənsiz", "Ölürəm" və s. şeirləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir...

Natəvanın şəxsiyyət kimi özünü təsdiqləməsində, vətənə, doğulduğu torpağa bağlı olmasında, həm də mənsub olduğu soyun, kökün, nəslin böyük təsiri vardır. Xeyriyyəçi, mesenat və fəal ictimai xadim kimi xalqın yaddaşında qalan Xurşidbanu Natəvanın 1873-cü ildə Şuşaya çəkdirdiyi su kəməri "Xan qızı bulağı" kimi məşhurdur. Ermənilər tərəfindən qurudulan bulaq Şuşa azad edildikdən sonra bərpa olunmuşdur. Xan qızı Araz çayından Mil düzünə də su kəməri çəkməyə təşəbbüs etmişdir. 1858-ci ildə Bakıda məşhur fransız yazıçısı Aleksandr Düma ilə tanış olmuş, Natəvanın həyat yoldaşı Xasay xanın fransız dilini yaxşı bilməsi onların arasında dostluq əlaqələri yaratmış, onlar Abşeronda birgə gəzintiyə çıxmış, ayrılarkən bir-birinə qiymətli hədiyyələr bağışlamışlar.

Tarixi sənədlər göstərir ki, "Üç muşketyor" və "Qraf Monte Kristo" kimi klassik əsərlərin müəllifi olan Aleksandr Düma 1858-1859-cu illərdə Rusiya və Qafqazda olmuş, Azərbaycan ərazisinə səyahət etmişdir. Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olarkən Qarabağ xanının qızı Xurşidbanu Natəvan və onun həyat yoldaşı Xasay Usmiyevlə tanış olub. Burada Düma Azərbaycan şairəsi ilə şahmat oynayıb və Natəvan Düməni mat edib. Onda Natəvanın 26, Dümanın 56 yaşı vardı.

Natəvanın Bakıdan Şıx kəndinə daş yol çəkdirməsi haqqında ilk məlumat da A.Dümanın "Qafqaza səyahət" kitabında öz əksini tapıb.

2016-cı il fevralın 18-də Heydər Əliyev Fondunun dəstəyilə Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsi ucaldılıb. Abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat var. 2021-ci ildə isə ermənilər tərəfindən güllələnmiş, uzun illər yerindən qərib düşmüş abidəsi yenidən Şuşaya qaytarılıb. Ruhu şad olub, sevinib Natəvanın, çünki həyatı boyu haqsızlıqlara tuş gələn, sevgisini axtarıb ona qovuşmaq üçün çarpışan, dövrün nadanlıqları üzündən həyatı zindan olan, övlad itkisinin acısını yaşayan, xalqına xidmətdən, xeyirxahlıq, yaxşılıq etməkdən yorulmayan Xan qızı Şuşanı dünyanın heç bir gözəl yerinə dəyişməyib. Əsir Şuşasının həsrətilə alışıb-yanan ruhu indi azad Şuşanın göylərində şadü xürrəm gəzib dolaşır...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 6 avqust.- S. 6.**